# Azərbaycanda peşəyönümü probleminin yaranması və inkişafı

**Günel Etibar qızı Rzayeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** rzayevagunel1527@gmailşcom

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** peşəyönümü, tərbiyə, problem, təhsil, təlim, şəxsiyyət, əmək
**Ключевые слова:** профориентация, воспитание, проблема, образование, обучение, личность, труд
**Key words:** professionalism, upbringing, problem, education, training, personality, labor

XX əsrin ortalarından inkişaf etməkdə olan kapitalist ölkələrində, sənayenin inkişafı ilə əlaqədar peşəyönümü işlərin elmi şəkildə aparılması zəruriyyətini yaratmışdır. Ötən əsrin əvvəllərində bir sıra qərb ölkəsində yerli özünüidarəetmə orqanlarının xüsusi şəxslərin, təşkilatların təşəbbüsü ilə peşəyönümü işləri xidməti meydana gəlmişdir. Bundan sonra müxtəlif ölkələrdə gənclərin peşəyönümünə dövlət xidməti yaranmağa başlamışdır.

1932-ci ildən N.K.Krupskaya tərəfindən peşəyönümü tərbiyənin politexnik təhsillə əlaqələndirilməsi şəklində qaldırılmış, sonra isə daha da genişləndirilərək peşəseçmə probleminin tərbiyəvi konsepsiyası kimi formalaşmışdır [101, s.2]. Bütün keçmiş sovet respublikalarında müəllimlər peşəseçmə probleminə bu konsepsiyadan başlamışlar. Azərbaycan pedaqoqlarından B.A.Abdullayev, S.A.Axundov, Z.İ.Qaralov, S.M.Quliyev, K.R.Quliyeva, S.M.Zeynalov, B.A.Əhmədov, Ə.Ə.Əhmədov, N.M.Kazımov, M.M.Mehdizadə, K.M.Məcidov, M.I.İlyasov, Ə.M.Hüseynov və başqaları şagirdlərin peşəyönümü probleminin bir çox fundamental cəhətlərini tədqiq etmişlər.

Psixoloqlarımız R.İ.Əliyev, Ə.Ə.Əlizadə yuxarı sinif şagirdlərinin şəxsiyyətin peşəyönümü baxımından ümumi qanunauyğunluqlarını, yaş xüsusiyyətlərini, peşə maraqlarını tədqiq etmişlər.

Prof. Ə.Ə.Əlizadə istedadlı uşaqların psixo-pedaqoji xüsusiyyətlərini, onların müəyyənləşdirilməsi və inkişaf istiqamətlərini, R.Əliyev şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsaslarını ətraflı tədqiq etmişlər. S.Seyidov "Menecment psixologiyası" adlı əsərində menecment psixologiyasının bir sıra fundamental məsələlərini tədqiq etmiş və bu sahədə kadr seçiminin xüsusiyyətlərini araşdırmışdır.

Ə.Ağayev, S.Axundov, Z.Qaralov peşəyönümünə şagird şəxsiyyətinin ideya-əxlaqı hazırlığı cəhətindən yanaşmış və peşəyönümü problemini şagirdlərin ideya-əxlaqı və əmək hazırlığının əlaqəsində olduğunu göstərmişdir. B.Abdullayev, İ.Mayılov, Z.Şöyübov və başqaları şagirdlərin əməyə və peşə seçməyə hazırlanmasında əmək təliminin və politexnik təhsilin rolunu tədqiq etmişlər.

Ümumtəhsil məktəbi şagirdlərinin peşə seçməyə yönəldilməsi, peşə və sənət seçməyin faydalı olması haqqında fikirlər ölkəmizdə XIX əsrin 60-cı illərindən başlanmışdır. Bu dövrdə sənaye və kənd təsərrüfatının inkişaf etməsi, neft sənayesinin genişlənməsi bu sahələr üzrə sənətkarlara və peşəkar fəaliyyət göstərə bilən insanlara tələbatı artırdı. Digər tərəfdən bu dövrdə Azərbaycanda təhsilin yeni istiqamətdə inkişafı həyata keçirilən bir sıra islahatlar, mütərəqqi dünya və rus pedaqoji ideyalarının Azərbaycanda yayılması şagirdlərin gələcək həyata

hazırlanması sahəsində məktəblərdə ümumtəhsil fənləri ilə yanaşı müəyyən peşə və sənətlərin öyrədilməsinə tələbat yarandı.

Ona görə XIX əsrin 60-cı illərindən başlayaraq respublikamızın bir sıra şəhər və rayonlarında, məsələn, Zaqatala, Lənkəran, Kürdəmir və Bakı məktəblərində təhsillə yanaşı, bir sıra peşələr də öyrədilirdi. Bütün bunlar sonralar şagirdlərin peşə seçməyə yönəldilməsi sayəsində yeni ideyaların və praktik təcrübənin formalaşmasında mühüm əhəmiyyət kəsb etdi.

Respublikamızda sənaye münasibətlərinin yaranması ilə əlaqədar yeni istehsal sahələrinin meydana gəlməsi bu sahələr üçün ixtisaslı kadrlar hazırlanması zəruriyyətini yaratdı. Mövcud məktəblərdə şagirdlərin müxtəlif peşələr-kənd təsərrüfatı, dülgərlik, çilingərlik və s. sahələr üzrə şagirdlər əmək bacarığının verilməsində mühüm əhəmiyyətə malik oldu. Bu tədbirlər şagirdlərin peşəyönümü işinə müəyyən köməklik göstərsə də, bu problemin həlli, respublikamızda keçən əsrin 20-ci illərindən sovet məktəblərinin yaranması ilə sistemli xarakter almağa başlandı.

Sovet məktəbində şagirdlərin peşəseçməyə hazırlanması məsələsi yalnız politexnik təlim verməklə yox, eyni zamanda texnik sistem ilə həyata keçirilməyə başlandı. Müxtəlif politexniki vasitələrin köməyi ilə peşəyararlığı öyrənilirdi. Məsələn, Bakıda neft sənayesi nəzdində politexniki laboratoriya yaradılmışdı. Laboratoriyada şagirdlərin neft sənayesi ilə bağlı olan peşələrə istiqamətləndirilməsi üçün müxtəlif elmi-tədqiqat işləri aparılırdı.

XX əsrin otuzuncu illərində Bakıda yaradılan “Peşə məsləhəti laboratoriyası” da bu işdə müsbət rol oynadı. Bu büro məktəb müəllimləri vasitəsilə məktəblərdə şagirdlər arasında peşəyönümü üzrə işlər aparılır, onların peşə meyllərini və yararlığını öyrənir və məsləhətlər verirdilər. Bu illərdə Bakıda Leninqrad şəhərinin təcrübəsindən istifadə etməklə peşə məsləhət kabineti yaradılmışdı. Həmin kabinetin vasitəsi ilə şagirdlərlə müsahibələr, müzakirələr, ekskursiyalar və s. keçirirdilər. Bu tədbirlər şagirdlərin peşə istiqamətinin formalaşmasına müəyyən təsir göstərirdi.

1930-cu ilin avqust ayında keçirilən I Ümumrusiya politexnik qurultayında qəbul edilmiş qərarlardan sonra respublikamızda da peşəyönümü sahəsində mühüm işlər görülməyə başladı.

31 yanvar 1931-ci ildə Azərbaycan müəllimlərinin I politexnik qurultayı çağırıldı. Qurultayın ümumtəhsil məktəblərinin politexnikləşməsi və şagirdlərin həyata hazırlanması üçün bir sıra mühüm qərarlar qəbul etdi. Qurultay şagirdlərin əməyinin ictimai istehsala yaxınlaşdırır, şagirdlərin fabrik, zavod və kalxozlarda müxtəlif əmək növləri və formaları ilə tanış olmalarını zəruri vasitələr hesab etdi. 1931-ci ilin may ayında Ümumittifaq politexniki qurultay oldu. Qurultayda qəbul etdiyi qərarlardan biri şagirdlərin peşəyönümü işini ümumtəhsil məktəblərinə keçirməyin zəruriliyini göstərmək olar. Bundan sonra respublikamızda əmək kollektivləri və istehsalat müəssisələri ilə məktəblər arasında əlaqələr yarandı, şagirdlərin təlimi ilə məhsuldar əmək arasında əlaqələr yaranmağa başlanması şagirdlərin peşəyönümünün formalaşmasına mühüm əhəmiyyəti oldu. Bu dövrdə istehsalat müəssisələrinin məktəblərə kömək göstərməsi sahəsində də nəzərə çarpacaq addımlar atıldı. Bir sıra istehsalat müəssisələri məktəblərdə əmək təlim dərslərini tədris etmək üçün əmək təlimi emalatxanaları təşkil edərək şagirdlərin həyata hazırlanması və onların müəyyən fəhlə və kənd təsərrüfatı peşələrinə istiqamətləndirilməsinə əhəmiyyətli təsir göstərdi.

İstər şəhər, istərsə də kənd məktəblərimizdə şagirdlərin əmək fəaliyyətinə cəlb edilməsi nümunələri göstərdi ki, bu illərdə şagirdlərin peşəyönümü işinin əsası qoyuldu, bu problemin həm nəzəri, həm də praktiki həlli üçün mühüm tədbirlər həyata keçirildi. Bu dövrdə Maarif Komissarı A.Sultanovanın, pedaqoqlar Ə.Hacızadənin, M.Əfəndiyevin, M.Rəhimlinin, B.Komazoyskinin yazdıqları bir sıra kitab və məqalələr həm politexnik təhsil, həm də peşəyönümü

sahəsində düzgün elmi istiqamətlərin yaranmasında mühüm rol oynadı.

1930-1937-ci illərdə şagirdlərin əmək hazırlığına və politexnik təhsilə birgə baxılmış, məktəb emalatxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, politexnik təhsilin gücləndirilməsinə müəllimlərin politexnik biliklərinin artırılmasına daha ciddi fikir verilməsinə başlanmışdır. Nəticədə məktəblərimizdə kənd təsərrüfatını öyrənmək üçün torpaq sahələri artmışdı. Təkcə Bakı şəhərində 1933-cü ildə 127 emalatxana fəaliyyət göstərmiş, kənd məktəblərində 405 ha dənli bitkilər, 376 ha tərəvəz bitkiləri, 476 ha isə texniki bitkilər üçün sahə ayrılmışdır. Təəssüf ki, şagirdlərin peşəyönümü ilə əlaqədar aparılan işlər 1934-cü ildən tədricən zəifləməyə başlamış və şagirdlərin praktiki hazırlığına yox, nəzəri hazırlığına daha çox fikir verilməyə başlanmışdır. Nəticədə əmək təlimi məktəblərin tədris planından çıxarılmış və peşəyönümü işlərinin təlim-tərbiyə prosesinin tərkib hissələrindən biri olduğu unuduldu. Lakin bu dövrdə Uşaq Texniki Stansiyaları, Gənc Təbiətçilər Stansiyaları kimi məktəbdənkənar tərbiyə müəssisələri uşaqların peşəyönümü sahəsində xeyli işlər görmüş və onlarda bir sıra peşələrə marağın formalaşmasına təsir göstərmişdir. Böyük Vətən müharibəsi illərində məktəblərimizin fəaliyyətində təhsildə baş verən problemlərlə yanaşı, müsbət irəliləyişlər də olmuşdur. Şagirdlər kənd təsərrüfatı əməyinə, hərbçi ailələrin təsərrüfat işlərinə, köməyə, metal qırıntıları toplamağa, meyvə və bitki toxumu, dərman bitkiləri toplamağa cəlb edilmişlər.

Müharibədən sonra bərpa dövrü başlanmışdır. Bu dövrdə şagirdlərin peşəyönümü probleminə diqqət artırılmış və həm dövlət səviyyəsində, həm də məktəblərdə geniş tədbirlər həyata keçirilməyə başlandı.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1977-ci ildə "ümumtəhsil məktəbi şagirdlərinin təlim-tərbiyəsini, əməyə hazırlanmasını təkmilləşdirmək haqqında" qərarı peşəyönümü sahəsində xüsusi rol oynadı. Azərbaycanda şagirdlərin peşəyönümü və gələcək həyata hazırlanması sayəsində qərardan gələn göstərişlər həyata keçirilməyə başladı. Məktəblərdə peşəyönümü kabinetləri yaradıldı. Hər bir məktəbin baza müəssisəsi müəyyənləşdirildi, məktəblərin əmək kollektivləri ilə əlaqələri möhkəmləndirildi. 80-ə yaxın məktəblərarası tədris-istehsalat kabinetləri yaradıldı. Məktəb emalatxanalarının təchizatı yaxşılaşdırıldı, sinifdən və məktəbdənkənar tədbirlərə geniş yer verilməyə başlandı.

Lakin son dövrlərdə "Respublika Peşəyönümü Mərkəzi"nin fəaliyyəti zəifləmiş və ümumtəhsil məktəblərinə əsaslı əməli kömək etməmişdir. 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun nəzdində "Şagirdlərin peşəyönümü problem laboratoriyası" şagirdlərin peşəyönlü sahəsində 25 ilə yaxın səmərəli fəaliyyət göstərmişdir. Laboratoriyanın işçiləri Azərbaycanın bir çox məktəblərində şagirdlərin peşəyönlü sahəsində onlara əməli kömək göstərmişdir. Bakının Yasamal rayonundakı məktəblərarası tədris-istehsalat kabineti, Xətai rayonundakı 254 saylı orta ümumtəhsil məktəbi, Sabunçudakı 88 saylı texniki-peşə məktəbi, Neftçala rayonundakı Aşağı Şurra və Qədimkənd kənd orta məktəbləri, Kürdəmir rayonundakı Topal Həsənli kənd orta məktəbi ilə müntəzəm əlaqə saxlamış, həmin məktəblərdə peşəyönümü sahəsində konfranslar, mühazirələr təşkil etmiş, şagirdlərə peşə məsləhətləri vermişlər.

Laboratoriya əməkdaşları respublikamızın Naxçıvan, Gəncə, Kürdəmir, Tovuz, Qazax rayon və şəhərlərində pedaqoji ictimaiyyətlə əlaqə saxlamış, Neftçala rayonunun Aşağı Surra kənd orta məktəbində "Məktəb islahatı və yeniyetmə gənclərin peşəyönümü problemi" adlı laboratoriya təşkil etmiş və bir sıra tədbirlər həyata keçirmişlər. Onlar müntəzəm olaraq mətbuatda, respublika televiziyasında şagirdlərin peşəyönümünün aktual problemlərinə dair çıxışlar etmişlər. Onların hazırladığı proqramlar, məqalələri hazırladığı metodiki göstərişlər, etdikləri çıxışlar müəllimlərə və şagirdlərə yaxından köməklik göstərmişdir.

Bakının orta məktəblərində, məktəblərarası tədris-istehsalat kombinatlarında, şəhər texni-

ki-peşə məktəblərində və digər yuxarıda adları çəkilən rayon və kənd məktəblərində ayrı-ayrı fənlərin proqram və dərsliklərin peşəyönümü imkanlarının öyrənilməsində və onların həyata keçirilməsində müəllimlərə yaxından kömək göstərmiş məktəblərin peşəyönümü kabinetlərinin tərkibində samballı kömək göstərmişlər. Təəssüf ki, bu laboratoriya da son illər öz fəaliyyətini dayandırmışdır. Laboratoriya əməkdaşları Voloqda, Poltaya, Səmərqənd, Karoqand, Çeboksar şəhərlərində keçirilən elmi-praktiki konfranslarda fəal iştirak etmişlər. Laboratoriya əməkdaşları K.Quliyev, A.Hüseynov peşəyönümü problemi ilə bağlı namizədlik dissertasiyaları müdafiə etmişlər.

12 aprel 1984-cü il tarixli Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Məktəblilərin əmək tərbiyəsini, təlimini, peşəyönümünü yaxşılaşdırmaq və onların ictimai-faydalı məhsuldar əməyini təşkil etmək haqqında" qərar qəbul etmişdir. Bu qərarla əlaqədar VIII-XI sinfin şagirdləri üçün peşə təlimi üzrə yeni proqramlar hazırlandı. Bu proqrama əsasən IX-XI siniflərdə peşə təliminə həftədə 4 saat ayrıldı. Cəmi IX-XI siniflərdə əmək təcrübəsinə 120 saat, peşə hazırlığına 596 saat vaxt ayrıldı. Bununla bərabər, VII-VIII, VIII-IX siniflərdə "İstehsalın əsasları, peşəseçmə" kursu öyrədilməyə başladı. İki ildə bu kursa 68 saat vaxt ayrıldı.

**Məqalənin aktuallığı.** Respublikamızda peşəyönümü probleminin yaranması və inkişafı, bu sahədə mövcud çətinliklərin araşdırılması ilə bağlı məsələlərin öyrənilməsinə az rast gəlindiyindən, məqaləni aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, keçmiş SSRİ-nin tərkibində olan digər respublikalarda olduğu kimi, Azərbaycanda da şagirdlərin peşəyönümü probleminin fundamental cəhətlərinin tədqiqi sahəsində alimlərimizin gəldiyi elmi nəticələr, bu istiqamətdə praktiki olaraq həyata keçirilən tədbirlər məqalədə konkret faktlarla göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən peşə təhsili və orta ixtisas məktəblərinin müəllimləri istifadə edə bilərlər.

## Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. F.N.İbrahimov, R.L.Hüseynzadə. Pedaqogika: Dərslik. I cild. Bakı, 2012.
3. M.İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və təhsil, 2018.

**Г.Э. Рзаева**

## Становление и развитие проблемы профориентации в Азербайджане

## Резюме

В статье затрагиваются вопросы становления и развития профориентации в нашей стране. В то же время речь идет о научных результатах наших ученых в изучении фундаментальных аспектов проблемы ученического профориентации в Азербайджане, который входил в состав СССР с 60-х годов прошлого века. Проведенные мероприятии в этой области также перечислены в конкретных примерах.

**G.E. Rzayeva**

## Formation and development of professionalism problem in Azerbaijan

### Summary

The article touches on issues of emergence and development of professionalism in our country. At the same time, we are talking about the scientific results of our scientists in the study of the fundamental aspects of the problem of student's professionalism in Azerbaijan, which has been a part of the USSR since the 60s of the last century. The activities in this area are also listed in concrete examples.

**Redaksiyaya daxil olub:** 25.10.2019